

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

16 sentyabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 35 (3548)


# BİR MİLLƏTİN, İKİ DÖVLƏTİN ZƏFƏR TARİXİ

Sentyabrın 15-də Bakı şəhərinin bolşevik-daşnak qüvvələrindən azad edilməsinin 103-cü ildönümü tamam oldu. 1918-ci ildə qazanılmış bu zəfər Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə mühüm hadisə kimi yazılıb. Qafqaz İslam Ordusunun Bakını bolşevik-daşnak işğalından azad etməsi tarixi-siyasi və mənəvi-psixoloji əsaslara söykənməklə Türkiyə-Azərbaycan qardaşlığının rəmzinə çevrilib. Uzaq tariximizə qısa ekskurs edərək vaxtilə Bakının, çağdaş tariximizdə isə Qarabağın işğaldan azad edilməsi kontekstində Azərbaycan-Türkiyəsi qardaşlıq münasibətlərinin bəzi məqamlarına nəzər salaq.



### Tarixə qısa ekskurs

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulanda Bakı yadellilərin əlində idi. Osmanlı dövləti iyunun 4-də Batumda imzaladığı müqavilə ilə Azərbaycana yardım etməyi üzərinə götürmüşdü. Cümhuriyyətin müraciəti əsasında Osmanlının hərbi naziri Ənvər paşanın qardaşı Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu adlandırılan silahlı qüvvə Azərbaycan istiqamətində yola çıxdı.

...Bakı şəhəri sentyabrın 15-də azad edildi. Sentyabrın 17-də isə Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Şəhərin azad edilməsi Bakıya dair iyrənc planları darmadağın etdi.

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndə də bizi ilk olaraq Türkiyə tanıdı.

### Azərbaycan torpağında uyuyan türk şəhidlər

Bakı şəhərinin azad edilməsinin yüz illiyi 2018-ci ildə Azadlıq meydanında möhtəşəm paradla qeyd edildi. Azərbaycana gəlmiş Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan bu möhtəşəm tədbiri Prezident İlham Əliyevlə birgə izlədi. İki dövlətin ordularının əsgərləri Azadlıq meydanında yan-yana addımladı. Prezident İlham Əliyev paraddakı çıxışında Qafqaz İslam Ordusunun Nuru paşanın rəhbərliyi altında sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsini tarixi hadisə adlandıraraq dedi: "Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacaqdır. ...Onların məzarları yan-yanadır. ... Onların xatirəsi bizim qəlbimizdədir və onların göstərdikləri qəhrəmanlıq bu gün Türkiyə və Azərbaycan birliyini daha da möhkəmləndirir".

Paradda: "Bir əsr əvvəl burada aparılan mübarizə bizim qardaşlığımızın, dostluğumuzun, birlik və bərabərliyimizin də rəmzidir. Tarixi bilmədən, bir əsr əvvəl Nuru paşanın və əsgərlərinin minlərlə kilometr uzaqdan Bakıya və Gəncəyə gəlmələrinin səbəblərini dərk etmədən Azadlıq meydanındakı bu həmrəylik mənzərəsinin mənasını anlaya bilmərik", - deyən Rəcəb Tayyib Ərdoğan bir əsr əvvəl azərbaycanlıların işğal altında zülm çəkdiyini, Nuru paşanın və Qafqaz İslam Ordusunun Bakıya və Gəncəyə gəlişinin əhali arasında böyük ümid doğurduğunu xatırlatdı.

### Tarix təkrar olunur

Ötən il sentyabrın 27-də Azərbaycan Vətən müharibəsinə, qurtuluş savaşına qalxaraq 30 ilə yaxın erməni işğalı altında qalmış torpaqlarını azad etdi. Bu şanlı Qələbədə Türkiyə liderinin, türk xalqının mənəvi-siyasi dəstəyi mühüm rol oynadı. Azərbaycanda bunu yüksək qiymətləndirir, minnətdarlıq duyğuları ilə xatırlayırlar.

Vətən müharibəsinin salnaməsini vərəqləsək, aydın görərik ki, müharibənin ilk günlərindən, ilk saatlarından Türkiyə Azərbaycanın yanında olub. Rəcəb Tayyib Ərdoğan Azərbaycanın haqq işinə öz dəstəyini verib, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu və olacağını bəyan edib. Qələbəmizdə mühüm rol oynayan bu siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir.

2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Türkiyədən gəlmiş böyük nümayəndə heyətinin, əsgər və zabitlərin iştirakı birliyimizi, dostluğumuzu və qardaşlığımızı bir daha bütün dünyaya nümayiş etdirdi. "Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür", - dedi qardaş dövlətin lideri.

Dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Şuşa Bəyannaməsi bir daha təsdiqləyir ki, kökləri dərin olan qardaşlığımız əbədidir. Biz birlikdə güclüyük!

Bir neçə gün əvvəl Laçın rayonunda Azərbaycan və Türkiyə xüsusi təyinatlılarının birgə döyüş atışlı taktiki təlimi keçirilib. Bu, xalqlarımızın, ordularımızın silah qardaşlığına ən yeni nümunədir.

Bu gün ən yüksək səviyyədə olan Azərbaycan-Türkiyə münasibətləri ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının fəlsəfəsini yetərincə əks etdirir və Azərbaycan-Türkiyə birliyinin sarsılmaz və əbədi olduğunu göstərir.

## DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ QƏBUL KEÇİRİLİB

**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov sentyabrın 9-da Türkiyə Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçını qəbul edib.**

Qonağı salamlayan nazir təyinatı münasibətilə onu təbrik edib, fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycan ilə Türkiyə arasında əlaqələrin günü-gündən genişləndiyini, dövlət başçılarımızın əməkdaşlığın bütün sahələrdə ən yüksək səviyyədə inkişafına böyük önəm verdiklərini diqqətə çatdıran daxili işlər naziri, eyni zamanda, son illər hər iki ölkənin Daxili İşlər nazirliklərinin cinayətkarlıqla mübarizə, peşə hazırlığı, informasiya və təcrübə mübadiləsi sahələrində əldə etdikləri önəmli nəticələr barədə məlumat verib.

General-polkovnik Vilayət Eyvazov Azərbaycan Polisinin, Daxili Qoşunların səmərəli fəaliyyət göstərdiyini, ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə aparıcı hüquq mühafizə orqanı kimi öz yerini tutduğunu məmnunluqla qeyd edərək bütün bu nailiyyətlərdə Türkiyə polisinin, eləcə də Jandarm Qüvvələrinin xüsusi rolunun, xidmətinin olduğunu nəzərə çatdırıb və buna görə Türkiyə Daxili İşlər Nazirliyinin, Emniyyet Genel Müdürlüyünün, o cümlədən Jandarm Qüvvələrinin bütün mənsublarına təşəkkürünü bildirib.



Səmimi qəbula və təbrikə görə dərin minnətdarlığını bildirən səfir Cahit Bağçı Azərbaycanın bütün sahələrdə sürətli inkişafından məmnunluğunu ifadə edib, həmçinin dövlətlərimizin müvafiq strukturları arasında əlaqələrin daha da genişləndirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

***Sentyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyev paytaxtın Xəzər rayonunda yeni tikilən 110/35/10 kilovoltluq "Buzovna-1" yarımstansiyasının açılışında iştirak edib.***

## *Rəsmi xronika*

*Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 14-də Rafiq Əsgər oğlu Cəlilovun Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında sərəncam imzalayıb.*

*Ölkəmizin rəhbəri sentyabrın 14-də Rəşad Ənvər oğlu Tağıyevin Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında sərəncam imzalayıb.*

*Sentyabrın 15-də dövlətimizin başçısı Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri Vaqif İsmayıl oğlu Sadıqovun eyni zamanda Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı təyin edilməsi haqqında sərəncam imzalayıb.*

# GƏNCLƏRƏ ETİMAD GÖSTƏRİLİR

## Daxili işlər naziri sıra baxışı keçirib



**Sentyabrın 10-da daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında və Əlahiddə Çevik Polis Alayında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**

Nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Kütləvi informasiya vasitələrində, o cümlədən Nazirliyin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, Nazirliyə onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 169 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Qeyd edək ki, onlardan 65 nəfəri torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən Vətən Müharibəsinin iştirakçıları olub.

Gənclər qarşısında çıxış edən general-polkovnik V.Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən mütərəqqi gənclər siyasəti gənc nəslin inkişafı, bilik və bacarıqlarını realizə etmələri üçün şərait yaratmaqla yanaşı, onları vətənpərvər ruhda formalaşdırıb. Azərbaycanlı gənclər öz vətənpərvərliklərini, qəhrəmanlıqlarını 44 günlük Vətən müharibəsində bir daha sübut etdi.

Nazir daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə polis adını və şərəfini daim uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini artırmalarını, öz üzərlərində səylə çalışmalarını və vətəndaş məmnunluğunun təmininə layiqli töhfələrini vermələrini tövsiyə edib.

*Zeyni Hüseynov,*
*polis leytenantı*

# Unudulmayan tarix

## Bakını işğaldan azad edənlər yad edilib

Nuru paşanın komandanlığı ilə Qafqaz-İslam Ordusu tərəfindən Bakının erməni-bolşevik işğalından azad edilməsinin 103-cü ildönümü ilə əlaqədar sentyabrın 15-də bir qrup polis əməkdaşı və Daxili Qoşunların hərbi qulluqçuları Şəhidlər xiyabanındakı "Türk Şəhidliyi" abidəsini ziyarət ediblər.

Polis əməkdaşları və hərbi qulluqçular Bakının işğaldan azad olunması uğrunda canlarından keçmiş şəhid türk əsgərlərini ehtiramla yad edib, onların xatirələrinə ucaldılmış abidənin önünə tər çiçək dəstələri düzüblər.







# Tədbirlər davam etdirilir



**BNMİ və Ağsu RPŞ-nin** əməkdaşları rayon sakini, əvvəllər məhkum olunmuş B. Mahmudova məxsus həyətyanı sahədən 13, **Sabirabad RPŞ-nin** əməkdaşları Şəhriyar kəndi ərazisində əvvəllər məhkum olunmuş Z.Səfərova məxsus torpaq sahəsindən 11 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolu, **Tərtər RPŞ-nin** əməkdaşları Hüsənli kənd sakini C. Bağırova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 7 ədəd çətənə kolu, yaşadığı evə baxış zamanı isə müvafiq sənədləri olmayan "İJ" markalı ov tüfəngi, **Zərdab RPŞ-nin** əməkdaşları Bıçaqçı kənd sakini A.Rzayev tərəfindən kultivasiya yolu ilə yetişdirilmiş 16 ədəd çətənə kolu, yaşadığı evə baxış zamanı isə 140 qrama yaxın marixuana aşkar edərək götürmüşlər.

**Göyçay RPŞ-nin** əməkdaşları tərəfindən Bəydövül kəndi ərazisindən 248, **Xaçmaz RPŞ-nin** əməkdaşları tərəfindən Niyazabad kəndi ərazisindən çəkisi 1 ton 230 kiloqram olan 1675 ədəd yabanı halda bitmiş çətənə kolu aşkar edilərək məhv edilmişdir.

*Natiq Cavadov,*
*polis mayoru*

# Təhlükəsizlik tədbirləri gücləndirilib




Məlum olduğu kimi, işğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları təhlükəsizlik, o cümlədən nəzarət-buraxılış tədbirlərini həyata keçirir. Tədbirlərin davamı olaraq bugünlərdə Əlahiddə Çevik Polis Alayının əməkdaşları Gorus-Qafan yolu üzərində qurulan postda xidmətə başlayıblar. Postda beton lövhələrlə ziqzaqvari manevrlər yaradılıb. Burada İrandan Ermənistana, oradan isə Azərbaycanın Qubadlı rayonunun ərazisindən keçən yük maşınlarına nəzarət olunur.

Maşınların daşıdığı yüklər yoxlanıldıqdan sonra onların hərəkətinə icazə verilir. İçərisində qadağan olunmuş yüklər olan avtomobillər geri qaytarılır.

*Əlizadə.T*

# Həyatını təhlükəyə atanlar

Daxili işlər orqanlarının əməkdaşları işğaldan azad edilmiş, lakin minalardan və digər partlayıcı maddələrdən tam təmizlənməmiş ərazilərə müvafiq icazə olmadan, nəzarət postlarından kənar yollarla keçməyə cəhd göstərən şəxslərin qarşısının alınması istiqamətində tədbirləri davam etdirir.

Sentyabrın 9-da Kəlbəcər Rayon Polis Şöbəsinin əməkdaşları işğaldan azad edilmiş ərazilərə qanunsuz daxil olmaq istəyən Natiq Hümbətov, Marif, Aftandil və Anar İsmayılovları saxlayıb. Onlar polis şöbəsinə dəvət olunub, profilaktiki söhbətlər aparılaraq mina və partlayıcı vasitələrin onların həyatı üçün təhlükə doğura biləcəyi barədə xəbərdarlıq ediliblər.

Həmin şəxslər barəsində inzibati tənbeh tədbiri tətbiq edilərək baxılması üçün rayon məhkəməsinə göndərilib.

# Koronavirus xəstələri saxlanılıb



Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət-profilaktik tədbirləri davam etdirirlər.

Sentyabrın 8-dən 14-dək olan müddətdə polis əməkdaşları tərəfindən 55 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 7 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

# Dələduzların qurbanına çevrilməyək

**Texnologiyanın inkişafı törədilən cinayətlərin, ələlxüsus narkotiklərin satışı, habelə dələduzluq hallarının yeni forma və məzmununu yaradıb.**



Leksikonumuzda özünə "sosial şəbəkə cinayətləri" kimi yer eləyən ifadələrin ümumişlək sözə çevrilməsi vəziyyətin ciddiliyindən xəbər verir və bu istiqamətdə polisin, eləcə də aidiyyəti qurumların fəaliyyəti operativliyi diqqət mərkəzindədir. Qeyd edək ki, sosial şəbəkələrlə işin qurulması, sosial şəbəkə üzərindən narkotiklərin satışı, alışı ilə məşğul olanların ifşa edilməsi, cinayət məsuliyyətinə cəlb olunması peşəkar yanaşmadan xəbər verir. Yeri gəlmişkən, cinayətkarlıqla mübarizədə vətəndaş fəallığı da xüsusi qeyd edilməlidir. Məhz vətəndaş-polis həmrəyliyi nəticəsində təkcə ötən ayın 1-dən sentyabrın 1-dək olan müddətdə 180 kq. marixuana, 155 kq. heroin, 7 kq. tiryək, 21 kq. metamfetamin, 25,04 qram metadon, 88 ədəd tramadol, 44 ədəd ekstazi, 24 ədəd preqabalin, 249 qram həşiş və 15 ton çətənə kolu qanunsuz dövriyyədən çıxarılıb.



Sosial şəbəkələr vasitəsilə həyata keçirilən cinayətlərdə statistik göstəricilərinə görə ikinci ən çox rast gələnən hal dələduzluqdur. Son dövrlər bu məzmunlu cinayətlərin sayı artmaqdadır. Belə ki, sosial medianın yaratdığı imkanları fürsət bilən "işbazlar" feyk profillərlə vətəndaşların etibarından, inamından sui-istifadə edərək pulları mənimsəyirlər. Bununla bağlı hətta Daxili İşlər Nazirliyi rəsmi sosial şəbəkə platformalarında vətəndaşlara çağırış edib. Çağırışda dələduzlara aldanmamaq, bu kimi hallarla qarşılaşdıqda hüquq mühafizə orqanlarına müraciət etmək tövsiyə olunur.

*Teymur Əlizadə,*
*polis mayoru*

**Döyüş meydanında hünər göstərən cəngavər oğulları 44 günlük Vətən müharibəsi bizə daha yaxından tanıtdı. Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Vətən müharibəsində iştirak edərək ağır yaralanan və sağlamlığını itirən igid oğullardan biri də ehtiyatda olan gizir Söhbətov Elsevər Cəmşid oğludur.**



# Vətən üçün döyüşənlər

## *Zəfər tariximizə onların adı qızıl hərflərlə yazılıb*

O, 8 iyul 1990-cı ildə Abşeron rayonunun Novxanı kəndində doğulub. Qazimizin atası da 1992-1994-cü illərdə Tərtər-Ağdərə bölgəsində döyüşüb.

Elsevər Suraxanı rayonunun Hövsan qəsəbəsindəki şəhid Elçin Qaranzadə adına 270 saylı tam orta məktəbdə 4-cü sinifədək, Novxanıdakı Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə adına 1 saylı tam orta məktəbdə isə 9-cu sinifə qədər oxuyub.

Məktəbli olduğu illərdə Novxanıdakı "Samuray" klubunda karate idman növü ilə məşğul olub. İdmanda əldə etdiyi nailiyyətlərə görə bir çox mükafatlara layiq görülüb. 2006-2010-cu illərdə Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecində təhsil alıb. Kollecdə lokomotiv və vaqon təsərrüfatı üzrə texnik-mexanik ixtisasına yiyələnib. Hərbi qulluqçumuz 2010-cu ilin aprel ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların Bakıdakı "N" saylı hərbi hissəsində ilkin təlim dövründən sonra hərbi and içib. Sonra qoşunların Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsinin komendant bölüyündə xidmət edib. Burda ona "baş əsgər" hərbi rütbəsi verilib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2011-ci ilin oktyabr ayında tərxis olunub. Müddətli həqiqi hərbi xidmətdən sonra bir müddət tikintidə fəhlə işləyib, zəhmətkeş gənc olaraq valideynlərinə köməyini əsirgəməyib.

2013-cü ilin iyun ayında Daxili Qoşunların Sumqayıtdakı "N" saylı hərbi hissəsinə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Bu hərbi hissədə hərbi xidməti dövründə xüsusi vasitələrin tətbiqi bölməsinin xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrupunda meteomüşahidəçi-atıcı, manevr qrupunda yarımqrup komandiri, xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri vəzifələrinə təyin edilib, "gizir" hərbi rütbəsinədək yüksəlib.

Xidmət etdiyi bölmələrin təyinatından irəli gələn döyüş tapşırıqlarının yerinə yetirilməsinə daim hazır olmaq üçün təlimlərdə əzmkarlıq göstərib, silah və xüsusi vasitələrin texniki xüsusiyyətlərini dərindən mənimsəyib. Tabeliyindəki yarımqrupun döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi yönündə öz bilik və bacarığını əsirgəməyib.

2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsində o da igid oğulların sırasında idi. Cəbrayıl istiqamətində düşmənin müdafiə xəttinin yarılması, postlarının ələ keçirilməsi, silah-sursatın, texnikasını cəmləşdirdiyi atəş nöqtələrinin susdurulması kimi çətin döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusi igidlik göstərib.

Sumqayıtdakı "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı mayor Ələsgər Muxtarov, Lənkərandakı "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini, Vətən müharibəsi iştirakçısı kapitan Nadir Şərifov Elsevərin bir hərbçi kimi müsbət fərdi keyfiyyətləri ilə seçildiyini dedilər.

Qazimiz deyir ki, döyüşlər başlayanda ilk olaraq Lələtəpə yüksəkliyi yaxınlığında Füzuliyə gedən yolun nəzarətdə saxlanılması tapşırığını alıblar. Sonrakı günlərdə düşmənin Lələtəpənin önündəki istiqamətdə yerləşən birinci müdafiə xəttinin, eləcə də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi ətrafındakı ikinci müdafiə xəttinin yarılması, mövqelərinin darmadağın edilməsi məqsədilə hücuma keçiblər. Hücum zamanı təcavüzkarın müdafiə xətləri yarılaraq əsas mövqeləri nəzarətə götürülüb, ermənilər canlı qüvvə, texnika, silah-sursat sarıdan ciddi itkiyə məruz qalıblar.

Oktyabrın 2-də 150-200 metr yüksəklikdəki düşmən postunu 8 nəfərdən ibarət qrupla ələ keçiriblər. Düşmənin postu geri almaq cəhdi uğursuzluqla nəticələnib. Bu döyüşdə Elsevər alın nahiyəsini dələrək sağ qulağının üstündən çıxan snayper gülləsindən ağır yaralanıb. Onun şəhid olduğunu zənn ediblər. Ancaq xırıltılı səsi və nəbzinin döyünməsindən sağ qaldığı məlum olub, döyüş meydanından silahdaşları tərəfindən çıxarılıb.

Qazimizi yenidən həyata Bakı Neyrocərrahiyyə Xəstəxanasının baş həkimi Fərid Təqdirov, neyrocərrahlar Nicat Muştaqov və Elşən Hüseynzadə qaytarıblar.

Azərbaycan Respublikası Prezidentinin 18 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə gizir E.Söhbətov "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qəhrəmanımıza Azərbaycan Respublikası Prezidentinin təqaüdü verilməklə yanaşı, II qrup əlilliyə görə pensiya da təyin olunub.

Nilay, Nuray və Nihad adlı üç övladı var.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# XƏZƏRİ "XƏZRİ"DƏN GÖRƏNLƏR

**"Xəzri". Bu istirahət və sağlamlıq mərkəzi daxili işlər orqanları əməkdaşlarının, onların ailə üzvlərinin və veteranların ən sevimli istirahət məkanı olsa da qardaş Türkiyədən və Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrdən bura gələnlərin sayı da yetərincədir. Xəzəri "Xəzri"dən görənlərin sırasında ölkəmizin məşhurları, tanınmış simaları da var.**



**Azərbaycanın Əməkdar jurnalisti, senarist və yazıçı Nadejda İsmayılova** isə burda gördüklərini belə qələmə alır: "Üç il bundan əvvəl dostlarım məni Zuğulbada yerləşən və Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" Sağlamlıq və İstirahət Mərkəzi ilə əyani tanış etdilər. Bura sözün bitdiyi və şərhə ehtiyac olmayan bir yerdi. Bodrumda, Yessentukidə, Pitsunda, Yurmalada, Karlovo-Varıda, Akapulkoda olmuşam. Bundan sonra yalnız və yalnız "Xəzri"! Səbəbini izah edim: Bu məkan təbiətlə, dənizlə insan arasında gözəgörünməz harmoniyanın vəhdət mərhələsidir. Bunu sözlə ifadə etmək mümkünsüzdür. Ətrafda sahildən yataq otağına qədər mükəmməl, hətta deyərdim ideal vəziyyətə gətirilmiş təmizlik. Menyu. Bu da bir başqa yazı mövzusudur. Dəbdəbəli, interyeri və eksteryeri ilə bahalı restoranlardan seçilmir. Sifarişə gələncə, təbii ki, milli mətbəxə üstünlük verilir. Yüksək texnoloji şərait. Televiziya, internet, idman qurğuları, su hovuzunda müalicəvi prosedurlar, uşaqlar üçün attraksionlar. Bütün bunlarla yanaşı, əzəli və əbədi qorunub saxlanılan gözəllik və çiçəklənən oleanders ətrafı ovsunlayır. Gəzintinin gözəlliyini hiss etmək istəyənlər üçün dənizə aparan zolaqlar var. Rahatlığı sevənlərin ixtiyarına günün istənilən vaxtında onları dənizə aparan golf arabaları və ya kiçik avtobuslar verilir. Sahildə, dənizin sərin mehində çay içə, müxtəlif sərinləşdirici içkilər qəbul edə bilərsiniz.

Ən başlıcası, məni bir yaradıcı şəxs kimi bu yazını yazmağa sövq edən burada çalışan insanların sevgisidir. Sakit, tələş olmadan, ahəngdar, təqdirə layiq!

Menecerlər, aşpazlar, barmenlər, ofisiantlar, xadimələr, mühafizəçilər, bağbanlar, xilasedicilər, tibb işçiləri hər an istirahətə gələnlərin hər istəyinə cavab verməyə hazırdırlar. Bir sözlə, "Xəzri" eşq məkanıdır".

**Azərbaycanın Əməkdar İncəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Elnarə Dadaşova** Daxili İşlər Nazirliyinə ünvanladığı təşəkkür məktubunda yazır: "Uzun illər yaradıcılıqla məşğul olan, Azərbaycan mədəniyyətini təmsil edən bir bəstəkar kimi ilk dəfə məzuniyyətimin Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzi"ndə unudulmaz, yaddaqalan günlərini yaşadım. Bu məkanda gülərüz, mehriban personalın sanitar-gigiyenik qaydalara riayət etməsi, iaşə və tibb xidmətləri işçilərinin yorulmadan çalışması, ləziz milli mətbəxin mövcudluğu təqdirəlayiqdir.

*Ardı 4-cü səhifədə.*

# POLİS AKADEMİYASINDA "BİLİK GÜNÜ" QEYD OLUNUB

**Sentyabrın 15-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni tədris ilinin başlaması və Bilik günü münasibətilə tədbir keçirilib.**



Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan igid oğullarımızın, həmçinin xidməti tapşırıqları yerinə yetirərkən həlak olan həmkarlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının dövlət himni ifa edilib.

Tədbiri giriş sözü ilə açan Akademiyanın rəisi, polis polkovniki Canpolad Daanov yeni tədris ilinin başlanması münasibətilə Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazovun təbrikini professor-müəllim heyətinə, kursantlara çatdırıb və onları təbrik edib.

Bu qocaman təhsil ocağının keçdiyi tarixi inkişaf yolundan bəhs edən C.Daanov Akademiyanın maddi-texniki bazasının formalaşmasının, daimi və dəyişən heyətin sosial şəraitinin yaxşılaşdırılmasının DİN rəhbərliyinin xüsusi nəzarətində olduğunu diqqətə çatdırıb.

Polis polkovniki Canpolad Daanov bu il əyani təhsil üzrə birinci kursa qəbul edilmiş 199 kursantdan 35-nin 600-dən, dörd nəfərin isə 650-dən yuxarı bal topladığını və onların məhz təhsil almaq üçün Polis Akademiyasını seçmələrini uğura gedən yolun başlanğıcı adlandırıb.

"Kriminalistika" kafedrasının rəisi, polis polkovniki Allahverdi Mahmudov Akademiyada daxili işlər orqanları üçün yüksək ixtisaslı, peşəkar kadr hazırlığı istiqamətində təlim-tədris prosesinin uğurla həyata keçirildiyini, respublikanın, o cümlədən bir sıra xarici ölkələrin ali təhsil müəssisələri ilə əlaqələrin genişləndirildiyini, təhsil və elmi-tədqiqat sahəsində qarşılıqlı əməkdaşlığın gücləndirildiyini qeyd edib.

Kursantlar adından çıxış edən beşinci kurs kursantı Rəşad Mehdiyev Azərbaycan gəncliyinə, eləcə də ölkəmizdə təhsilin inkişafına xüsusi diqqət və qayğı ilə yanaşıldığını, gələcəyin ali təhsilli hüquqşünasları üçün Polis Akademiyasında yaradılan şəraitin əlaçı tələbələrin sayının ildən-ilə artmasının bariz nümunəsi olduğunu vurğulayıb.



Sonra bu il qəbul imtahanlarında 650-dən yuxarı bal toplayan 4 kursanta xatirə hədiyyələri, hüquq ədəbiyyatına aid kitablar, ötən tədris ilini əla qiymətlərlə başa vurmuş 5 kursanta "Əlaçı kursant", idmanda qazandıqları uğurlara görə isə 4 kursanta "İdmançı kursant" döş nişanı təqdim olunub.

Tədbirə yekun vuran Akademiya rəisi, polis polkovniki C.Daanov kursantlara daim yüksək nizam-intizam, nümunəvi davranış nümayiş etdirməyi, tədrisə məsuliyyətlə yanaşmağı, Vətənə, dövlətə, xalqa sədaqətli olmağı, müasir tələblərə cavab verən, hərtərəfli hazırlıqlı zabit kimi formalaşmağı tövsiyə edib.

Daha sonra kursantlar təntənəli marşla tribunanın önündən keçiblər.

# Silah-sursat aşkar edilib

**İşğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları tərəfindən silah-sursatların aşkar edilməsi məqsədi ilə profilaktiki tədbirlər davam etdirilir.**



DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, Füzuli Rayon Polis Şöbəsi əməkdaşlarının bugünlərdə keçirdikləri növbəti nəzarət-profilaktiki tədbir uğurla nəticələnib. Polis əməkdaşları rayonun işğaldan azad edilmiş ərazilərində 5 avtomat, 1 pulemyot, 2 qumbaraatan, 14 müxtəlif markalı qumbaralar, silah sandıqları, əleyhqazlar, alışdırıcılar, eləcə də 985 ədəd müxtəlif çaplı güllələr və digər döyüş sursatları aşkar edilərək aidiyyəti üzrə təhvil veriblər.

# XƏZƏRİ "XƏZRİ"DƏN GÖRƏNLƏR

*Əvvəli 3-cü səhifədə.*



Asudə vaxtın səmərəli keçirilməsi üçün təşkil olunan mədəni-kütləvi tədbirlər, o cümlədən peşəkarlıqla tərtib olunmuş silsilə konsertləri xüsusən vurğulamaq istərdim. Müəllimim, dünyaşöhrətli görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin bir tövsiyəsi burada təşkil olunan konsertlərin tərtibatında yüksək səviyyədə həyata keçirilir. Bu mənada, peşəkar bəstəkar olaraq "Xəzri"də istirahət edən qonaqlar üçün keçirilən musiqili gecələrin özəlliyini nəzərinizə çatdırmaq yerinə düşərdi. Yaddaqalan və yaxşı mənada seçilən musiqili axşamlar biz qonaqlara xüsusən zövq verdi. Çünki bu ağır pandemiya dövründə konsert salonlarının və digər mədəniyyət ocaqlarının bağlı qaldığı zaman, açıq havada səslənən musiqi düşünülmüş, zövq oxşayan tərtibat və peşəkar ifa tərzi ilə ruhumuzu oxşadı.

İftixar hissi ilə bir daha vurğulayıram ki, qalib xalqımızın 44 günlük Vətən müharibəsində zəfər çalan şanlı ordumuzla yanaşı mübariz polislərimizin də qəhrəmanlığı danılmazdır. Qan yaddaşımıza həkk olan musiqimiz həyatımızın hər anında bizim dayağımıza çevrilir. Odur ki, qəhrəman oğullarımız "Qarabağ şikəstəsi" ilə, dahi Üzeyirin ölməz "Cəngi" sədaları altında döyüşə atılırdılar. Bu baxımdan istirahət və sağlamlıq mərkəzində təşkil olunan konsertlərin təranələri böyüklərlə yanaşı, gənc nəslə də vətənpərvərlik ruhu aşılayır.

Yaşadığım bu mənalı günlərə görə Daxili İşlər Nazirliyinin və "Xəzri"nin rəhbərliyinə dərin minnətdarlığımı bildirir, gələcək fəaliyyətlərində uğurlar arzulayıram".

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

**Nəsimi RPİ 20-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 6-da R.Əliyevin bank hesabından 643 manat oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini E.Əhmədli saxlanılmışdır. Araşdırma aparılır.

◆◆◆

**Xətai RPİ 36-cı PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 5-də rayon ərazisindən 2 min manat dəyərində moped oğurlamaqda şübhəli bilinən paytaxt sakini, əvvəllər məhkum olunmuş Ü.Tağıyev saxlanılmışdır.

◆◆◆

**Suraxanı RPİ 30-cu PŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini N.Sadıqov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 508 qramdan artıq heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Xəzər RPİ 3-cü PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 1-də Ə.Xəlilovu döyüb 100 manat pulunu quldurluq yolu ilə almaqda şübhəli bilinən V.Əliyev saxlanılmışdır.

◆◆◆

**Abşeron RPİ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 8-də Məsazır qəsəbəsi ərazisində sərnişin avtobusunda qəsəbə sakini E.Salahovun cibindən 1237 manat oğurlamaqda şübhəli bilinən Sumqayıt şəhər sakini, əvvəllər məhkum olunmuş X.Qasımov saxlanılmışdır. Araşdırma aparılır.




◆◆◆

**Salyan RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 10-da Çadırlı kəndi ərazisində Salyan Regional Qaz İstismarı İdarəsinə məxsus 115 metr dəmir borunu oğurlamağa cəhd göstərmiş kənd sakinləri Ş.Abbaszadə və B.Məmmədov saxlanılmışlar.

◆◆◆

**Cəlilabad RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş R.Qarayev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 40 qramdan artıq heroin aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun evinə baxış zamanı isə oradan 4 kiloqramdan artıq heroin, 251 qramdan artıq metamfetamin, 1 kiloqramdan artıq tiryək və 2 kiloqramdan artıq marixuana götürülmüşdür.



# XƏZRİ sizi gözləyir




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 16 sentyabr 2021-ci il-31 may 2022-ci il tarixlərə qiymətləri (daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

6. Karantin rejimi dövründə 18 yaşdan yuxarı şəxslərin COVID-19 pasportunun təqdim etməsi mütləqdir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobus gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

| 16 sentyabr 2021-ci il - 31 may 2022-ci il | | |
|---|---|---|
| (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |



# Yetirmələrimiz güclərini sınadılar




**Ölkəmizin idman sahəsində əldə etdiyi uğurlarda DİN İdman Cəmiyyətinin xüsusi rolu var. Olimpiya, dünya, Avropa kimi mötəbər çempionatlarda idmançılarımızın qazandığı nailiyyətlər bunu deməyə əsas verir.**

Bugünlərdə yetirmələrimizin növbəti beynəlxalq uğurunun əks-sədasını aldıq. Belə ki, sentyabr ayının 3-dən 11-dək Rusiyanın Kazan şəhərində MDB ölkələri arasında açıq idman oyunları keçirilib. Dairəvi stend atıcılığı üzrə ölkəmizi təmsil edən İdman Cəmiyyətinin yetirməsi Cavid Həsənov rəqiblərinə şans verməyib. Hədəflərə sərrast atəş açan təmsilçimiz I yerə layiq görülüb.

Oyunlarda idmanın sərbəst güləş növü üzrə 97 kiloqram çəki dərəcəsində qüvvəsini sınayan yetirməmiz İslam İlyasov da adını mükafatçılar sırasına yazdırıb. O, dairəvi növdə baş tutan yarışda fəxri kürsünün II pilləsinə yüksəlib.

Sərbəst güləşdə çıxış edən digər bahadırımız Sabir Cəfərov isə 65 kiloqram çəkidə iki rəqibindən geri düşərək III yeri tutub.

Qeyd edək ki, onları bu yarışa DİN İdman Cəmiyyətinin məşqçiləri Emin Cəfərov, Tural Məmmədov və Elşad Allahverdiyev hazırlayıblar.

# Polis fiziki məhdudiyyətli uşağı xilas etdi




**Bir neçə gün öncə təhkim olunmuş ərazidə xidmət aparan Xətai RPİ-nin əməkdaşları köməksiz vəziyyətdə qalan azyaşlının həyatını xilas ediblər.** Hadisə gecə saatlarında rayonun "Gənclik" parkında qeydə alınıb. Belə ki, ana fiziki məhdudiyyətli azyaşlı övladını maşında tək qoyaraq parka gedib. Avtomobillərin park olunduğu yerdə vətəndaşlar maşında azyaşlı uşağın ağladığını görərək ərazidə xidmətdə olan polislərə xəbər veriblər. Hadisə yerinə gələn asayiş keşikçiləri avtomobilin yan şüşəsinin aşağı olmasından istifadə edərək 2 saatdan çox maşının içində köməksiz qalan körpənin həyatını xilas ediblər.

Hadisənin görüntüləri əraziyə toplaşan insanlar tərəfindən çəkilib. Həmçinin, görüntülərdə polis əməkdaşlarının "lazım olan anda, lazım olan yerdə" olması və polis əməkdaşlarının bu xilaskarlıq missiyasını da uğurla icra etməsi vətəndaşlar tərəfindən alqışlanıb.

*Teymur Əlizadə,*
*polis mayoru*

## Sentyabr ayının 8-dən 14-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində 255 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 68 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 343, o cümlədən borclu şəxs qismində axtarışda olan 226 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 22 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 22 nəfər ölmüş, 5 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 163 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik